1.

# Mənimlə danış...

## Gəlin uşaqlara qarşı diqqətli olaq

Hər birimiz gündəlik həyatımızda nəyəsə əsəbiləşir, bəzən gün ərzində müxtəlif xoşagəlməz hadisələrlə üzləşirik. Hətta bəzən tam olaraq hadisənin "baş qəhrəmanı"na da çevrilirik. Həmin anlarda özümüzdə güc tapıb belə vəziyyətlərdən çıxış yolu arayırıq. Bu zaman ətrafımızda bizə yaxın olan insanlarla dərdləşir, bəzi hallarda isə psixoloq məsləhətinə ehtiyac duyuruq. Söylədiyimiz odur ki, biz böyüklər istisna hallarını nəzərə almaq şərti ilə haradasa belə situasiyalardan çıxırıq, özümüzə, əsəblərimizə hakim olmağı bacarırıq. Söhbət uşaqlara gəldikdə isə fərqli mənzərənin şahidi oluruq. Şiddət görən, hər hansı bir təzyiqə məruz qalan və ya ailədaxili problemlərin içində, belə demək olarsa, böyüyən, ətrafdakılardan laqeydlik, biganəlik görən uşaqların psixoloji durumu böyüklərlə müqayisədə daha fərqlidir və onlara münasibətimizdə daha həssaslıq göstərməyimiz tələb olunur. Heç kimə sirr deyil ki, hər hansı zorakılıqla üzləşən və ya şiddət görən, müxtəlif təzyiqlərə məruz qalan uşaq və yeniyetmələr çox vaxtı özlərinə qapanır, bədbinləşir və sığınacaq kimsə olmadıqlarını düşünürlər. Belə uşaqlar bir müddət sonra ünsiyyət qura bilmir, dərdlərini danışmaqdan çəkinir və nəticədə bununla bağlı onların sağlamlıqlarında ciddi fəsadlar yaranır. Nəzərə alsaq ki, uşaqlar gününün çox hissəsini məktəbdə keçirir və bu, ailə ilə birlikdə təhsil müəssisələrinin də həmin məsələyə daha məsuliyyətlə yanaşmasını bir daha gündəmə gətirir.

Məhz Təhsil Nazirliyi tərəfindən bu məsələnin aktuallığı nəzərə alınaraq yeni sosial kampaniyaya başlanılıb. Elə məqsəd də ümumi təhsil müəssisələrində sağlam mənəvi-psixoloji mühitin təmin edilməsi, təhsilalanların hər hansı fiziki və psixoloji zorakılıq hallarından qorunmasına yardımçı olmaqdır.

Valideynlərin, məktəb rəhbərlərinin, həmçinin geniş ictimaiyyətin diqqətinin qeyd olunan məsələlərə cəlb edilməsi məqsədilə start verilən "Mənimlə danış" sosial kampaniyası çərçivəsində xüsusi maarifləndirici sosial videoçarx hazırlanıb və təhsil müəssisələrində nümayişi təmin olunub. Məktəblərdə fiziki və psixoloji zorakılıq halları ilə qarşılaşan şagirdlərlə bağlı hazırlanan bu videoçarx həmin məsələlərin köklü səbəblərini göstərir.

Bütün bunlar və reallaşdırılması nəzərdə tutulan digər işlər Təhsil nazirinin 13 may 2019-cu il tarixli əmri ilə "Ümumi təhsil müəssisələrində əlverişli təlim və inkişaf mühitinin təmin edilməsi üzrə əlavə tədbirlər barədə Fəaliyyət Planı"na müvafiq olaraq həyat keçirilir. Belə ki, həmin planda ümumi təhsil müəssisələrində sağlam mənəvi-psixoloji mühitin təmin edilməsi, məktəb-ailə münasibətlərinin təkmilləşdirilməsi, təhsilalanların hər hansı fiziki və psixoloji zorakılıq hallarından qorunması istiqamətində bir sıra tapşırıqlar nəzərdə tutulur. Eyni zamanda, bu kimi hallarla bağlı nazirliyə məlumatların operativ olaraq verilməsi, həmin məlumatların qısa zamanda araşdırılması və təhlillər əsasında qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə cari ilin may ayından 146-2 xüsusi (fövqəladə) hallar üçün yeni "Qaynar xətt" xidməti fəaliyyətə başlayıb.

⇨Ardı səh.7



# Mənimlə danış...

## Gəlin uşaqlara qarşı diqqətli olaq

⇦ Əvvəli səh.1

Samirə KƏRİMOVA

Bununla bağlı ölkənin bütün ümumi təhsil müəssisələrində məlumatlandırma xarakterli elan lövhələri yerləşdirilib.

Bir sözlə, “Mənimlə danış” uşaqlara onları narahat edən problemlərdən çıxış yolunu göstərəcək.

İctimaiyyət arasında, sözün yaxşı mənasında, geniş rezonansa səbəb olan kampaniyanın cəmiyyətə göndərdiyi mesaj nədir və bu, hansı müsbət nəticələrin əldə olunmasına yardımçı olacaq? Paytaxtın bir neçə təhsil müəssisələrinin rəhbərləri, Təhsil Şurasının sədri, eləcə də müəllimlərlə birgə məsələlərə aydınlıq gətirməyə çalışdıq.

### “Mənimlə danış” təhsil müəssisələrinə, valideynlərə bir çağırışdır

*Paytaxtdakı Məmməd Rahim adına 7 nömrəli tam orta məktəbin direktoru Könül Həsənova Təhsil Nazirliyinin start verdiyi sosial kampaniyanı belə dəyərləndirir. Nazirliyin xüsusi (fövqəladə) hallar üçün yaratdığı “146-2 Qaynar xətt” inin isə şagirdlərin baş vermiş hansı bir xoşagəlməz hadisə ilə bağlı zəng edəcəyi ən yaddaqalan nömrə olduğunu söyləyir. Direktor təhsilalanların problemlə bağlı bu nömrəyə zəng vurmaq üçün öncə onların maarifləndirilməsi məqsədi ilə görüşlərin təşkilinin nəzərdə tutulduğunu bildirir. Şagird bilməlidir ki, verdiyi hər bir məlumata görə məsuliyyət daşıyır. Hazırlanmış videoçarxı da məktəbin pedaqoji kollektivi ilə bərabər izləyib və qoyulan problemləri sinif rəhbərləri ilə müzakirə ediblər. Çarxda dövrümüzün ən aktual problemlərindən biri-şiddətin işıqlandırıldığını söyləyən direktor burada əsas məsələnin şiddətə məruz qalan və şiddət göstərən tərəflərin göstərilməsi olduğunu qeyd edir. Bildirir ki, bu məsələdə həm valideyn, həm də müəllim biganəliyi var. Belə uşaqların psixoloji durumları ilə bağlı onlarla iş aparmaq, problemlərini bölüşmək üçün şərait yaratmaq mütləqdir. Bu məsələdə ailə faktorunun da vacibliyi nəzərə alınmalıdır. Könül Həsənovanın sözlərinə görə, şagirdlərin aludə olduğu sosial şəbəkələr, döyüş oyunları, müəyyən televiziya verilişləri də, çox təəssüf ki, onları bəzən şiddətə sövq edir.*

- Düşünürəm ki, bu gün uşaq və yeniyetmələrə diqqət ayrılmadığını desək, yalan olar. Lakin bunu yetərincə edə bilirikmi? Yeniyetməlik dövrü övladlarımızın ən çətin dövrüdür. Bu dövrdə biz onlarla daha ehtiyatla, nəvazişlə, qayğı ilə davranmalıyıq. Övladlarımızın etimadını qazanmalıyıq ki, problemlərini, onları narahat edən məsələləri bizimlə bölüşə bilsinlər. Biz çalışmalıyıq ki, övladlarımızı başa düşək, onlara yetərincə vaxt ayıraq, asudə vaxtlarının düzgün təşkili üçün imkanlar yaradaq, onlarda özgüvən hissini artıraq.

Məktəbdə hər bir sinif rəhbəri şagirdini daha yaxından tanımalı və xarakterik xüsusiyyətlərinə bələd olmalıdır. Onlara fərdi yanaşmalı, şagirdlər arasındakı münasibətlərin tənzimlənməsində yardımçı olmalıdır. Təbii ki, sinif rəhbəri ilə valideynlər arasında sıx əlaqə qurulmalıdır. Məktəbdə təhsil alan hər bir şagirdimizin tərbiyəsinin əsası ailədə qoyulur. Şagirddə ailədə valideyn, məktəbdə isə müəllimləri tərəfindən nəzarət olmalıdır.

Təhsil müəssisəsində uşaq və yeniyetmələrlə bağlı işlərin görülməsi məktəb rəhbərliyinin, sinif rəhbərləri və psixoloqun birgə fəaliyyətinə əsaslanır. Bizim təhsil müəssisəsində də mütəmadi olaraq psixoloqun şagirdlərlə maarifləndirici görüşləri keçirilir, onlarla sorğu aparılır. Sorğunun nəticələri sinif rəhbərləri, psixoloq və mənim tərəfimdən müzakirə edilir. Hər hansı bir şagirddə aşkarlanan psixoloji problem, sarsıntı, gərginlik hallarının birgə fəaliyyət nəticəsində aradan qaldırılmasına səy göstəririk. Bilirik ki, şagirddə yarana biləcək problem onda özünəqapanmaya, depressiyaya düşməsinə gətirib çıxarar ki, bu da müəyyən fəsadlara yol aça bilər. Bunun əksi isə, yəni, valideyn və müəllim biganəliyi, etinasızlığı övladlarımızın həyatları üçün təhlükə yaradır. Düşünürəm ki, problem aktuallaşmamış qarşısını almaq üçün, ilk növbədə, onu yaradan səbəbləri müəyyənləşdirmək lazımdır.

Bilirsiniz ki, məktəbdə sağlam psixoloji mühitin formalaşmasında müəllim-şagird-valideyn əməkdaşlığının düzgün qurulması önəmli faktorlardan hesab edilir. Və məktəbdə sağlam mühit varsa, həmin məktəbdə təlim-tərbiyə məsələləri də yüksək səviyyədə olacaqdır.

Mənim fikrimcə, Təhsil Nazirliyinin “Mənimlə danış” sosial kampaniyası məhz təhsil müəssisələrinin, valideynlərin, eyni zamanda bütövlükdə ictimaiyyətin diqqətini uşaqların problemlərinin həllinə cəlb etmək üçün sanki bir çağırışdır.

### Uşaqları dinləməyi bacarmalıyıq

*Bakıdakı 60 nömrəli tam orta məktəbin direktoru Fayaz Hüseynov deyir ki, şagirdləri anlamaq, başa düşmək üçün, ilk növbədə, onlarla düzgün, ədalətli, maraqlarını nəzərə alaraq, gərginlikdən uzaq xoş bir ünsiyyət qurmaq lazımdır. Onların dostluğunu və güvənini qazanmaqla daha müsbət yönümlü və düzgün istiqamətləndirici münasibət yaratmaq mümkündür. Münasibət nə qədər sıx və güvənli qurularsa, şagirdlər müəllim və valideynləri ilə bir o qədər səmimi münasibətdə olacaqlar. Onları başa düşmək, istəklərini nəzərə almaq, fikirlərini ətrafındakılarla rahat bölüşmələrinə nail olmaqla, baş verə biləcək bir çox problemlərin, anlaşılmazlıqların qarşısını almaq olar.*

- Biz məktəb olaraq buna önəm verir və sinif rəhbərlərinin şagirdlərə daha çox diqqət ayrılması məsələsini nəzarətdə saxlayırıq. Şagirdlərimizin özünü rahat və uyğun mühitdə hiss etmələri üçün əlimizdən gələni əsirgəmirik. Təhsil naziri Ceyhun Bayramovun dediyi “Hər bir şagirdimizi tanıyaq” fikri məktəbimiz üçün əsas prioritet istiqamətlərdən biridir. Məktəbimizdə təhsil alan 2300-ə yaxın şagirdin hər birini direktor olaraq özüm də tanımağa çalışıram. Bir çoxları ilə, xüsusən yuxarı sinif şagirdləri ilə tez-tez fərdi söhbətlər aparır, tövsiyələr verir və müxtəlif layihələrə, tədbirlərə cəlb edirəm.

Əgər bir şagird evdə valideynlə, məktəbdə müəllimləri ilə fikirlərini bölüşmürsə, onu narahat edən problemlər haqqında danışmırsa, təbii ki, ilk növbədə, anlaşıla bilinməyəcəyini düşündüyündəndir. Biganəlik, diqqətsizlik, sərt yanaşma uşaqları böyüklərdən uzaqlaşdıran, özlərinə qapandıran əsas faktorlardandır. Buna görə uşaqları anlamağa, düzgün yol göstərib, məsləhətlər verməkdə daha maraqlı olmalıyıq. Şagirdlərimizə hər birimiz üçün onların dəyərli olduğunu hiss elətdirmək lazımdır.

Təhsil Nazirliyinin “Mənimlə danış” videoçarxı əslində uşağa qarşı olan laqeydliyin, biganəliyin doğurduğu acı fəsadı göstərir.

Videoçarx ətrafdakılara vaxtında verilən SOS siqnalıdır ki, sosial durumumuzdan, statusumuzdan, cəmiyyətdə tutduğumuz mövqedən, ailə vəziyyətindən asılı olmayaraq uşaqlara qarşı daha həssaslıq nümayiş etdirməli, söylədikləri fikirlərə hörmətlə yanaşmalı, onlarla münasibətləri düzgün qurmalı, ən əsası onları dinləməyi bacarmalıyıq.

### Laqeydsizlik, diqqətsizlik və biganəlik uşaqlarımızı uçuruma apara bilər

*Bakıdakı Samir Hacıyev adına 5 nömrəli tam orta məktəbin direktoru Nərminə Gündüzlünün sözlərinə görə, ilk növbədə valideynlər, sonra isə müəllimlər uşaqları özlərinə inandırmağı, onların problemlərinin içində olub, kömək əlini uzatmağı bacarmalıdırlar. Münasibəti elə qurmaq lazımdır ki, istər övlad və ya şagird olsun, onun böyüyə yaxınlaşıb, problemini söyləməkdə qorxusu olmasın. Bir dəfə böyüklərdən probleminin həllini görən uşaq narahatçılıq keçirdiyi digər məsələlərlə bağlı da onların məsləhətlərini eşitməkdə maraqlı olacaqdır. Xüsusilə valideynlər övladlarının psixoloji durumuna, sağlamlığına diqqət yetirməli, ən başlıcası isə övladı ilə dost və sirdaş olmağı bacarmalıdırlar.*

- Bəzən uşaqlar onları narahat edən məsələlərlə bağlı danışmaq istəmirlər, özlərinə qapanırlar. Bunun bir günahı böyüdüyü ailənin üzərinə düşürsə, digər tərəfdən də onun təhsil aldığı məktəb də məsuliyyət daşıyır. Hər hansı bir problem yaşayan və yaxud təzyiqə, şiddətə məruz qalan uşaqlar vaxtında aşkarlanmalı, onları narahat edən məsələlər müəllimin, eyni zamanda, valideynin iştirakı ilə həll olunmalıdır. Böyüklərin biganəliyi, səbəbsiz danlaqlar, təhqirlər, əhəmiyyətsizlik və düzgün qərarların verilməməsi gələcəkdə uşaqlarda ciddi fəsadlara gətirib çıxara bilər.

Əslində çəkilən videoçarxda şagirdin yaşadığı problem bir daha göz önünə gətirilir ki, hörmətli valideynlər, müəllimlər, ayıq- sayıq olun. Unutmayaq ki, laqeydsizlik, diqqətsizlik və biganəlik uşaqlarımızı dərin bir uçuruma apara bilər.

### Videoçarx bir şagirdin timsalında onu əhatə edən insanların düzgün olmayan rəftarının nəticəsini göstərir

*37 ildir ki, pedaqoji fəaliyyətlə məşğul olan Fəridə Məmmədova M.Rahim adına 7 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimidir. İbtidai təhsilin bünövrə olduğunu, şagirdlərin gələcək təhsil nailiyyətlərinin məhz bu bünövrənin necə qoyulmasından asılı olduğunu söyləyir. Təcrübəli müəllim deyir ki, məktəbdəki tərbiyə işinin təşkili də məhz ibtidai təhsil pilləsində qoyulur.*

- Hər bir uşağı tanıyır, onun hansı fərdi xüsusiyyətlərə malik olmasını yaxşı bilirəm. Valideynlərlə də hər gün ünsiyyətdə oluram. Bu baxımdan mənim şagirdlərimlə bağlı hər hansı bir problem yaranarsa, valideynlərlə birlikdə vaxtında onu həll etmək imkanlarım var.

İşlədiyim müddət ərzində psixoloji problemi olan şagirdlərlə son on ildə rastlaşmışam. Bu problemlər əsasən ailədəki durumla bağlı olur. Problemi aradan qaldırmaq üçün müəyyən müddət şagirdi ələ almağa çalışır və bunun səbəbini öyrənirəm. Bundan sonra valideynlə əlaqə saxlayıram. Ailə münaqişələri, ata ilə ananın ayrılması uşaqların psixologiyasına, xüsusilə kiçikyaşlı uşaqlara daha çox təsir göstərir. Onlarda məyusluq, kobudluq, özünəqapanma kimi hallar müşahidə edilir. Onu da deyim ki, əvvəllər belə uşaqlara çox az sayda rast gəlirdimsə, indi bu, çoxluq təşkil edir.

Bilirsiniz, apardığım müşahidələr onu deməyə əsas verir ki, son dövrlərdə, bəzi ailələrdə uşaqlara diqqət kifayət qədər ayrılmır. Bunu mən onların dərslərindəki nailiyyətlərindən, bir-birlərinə olan münasibətlərindən, danışıq zamanı nitqlərində işlətdikləri ifadələrdən daha çox hiss edirəm. Valideynlə bu haqda söhbət apardıqda, məlum olur ki, o, vaxtını ancaq ailənin maddi durumunu təmin etmək üçün işə sərf edir. Uşaqla məşğul olmağa və yaxud nəzarət etməyə vaxtı olmur. Uşaqlar nəzarətdən kənarda qaldıqlarına görə, öz maraqları dairəsində əylənirlər. Məsələn, hazırda kiçikyaşlı uşaqların diqqətini cəlb edən mobil qurğularda, planşetlərdə və kompüterlərdə olan oyunlar və digər əyləncə və multimedia proqramlarıdır. Nəzarətsiz qalan uşaqlar bu əyləncələrdən yaşlarına uyğun olmayan məlumatlar toplayır, aqressiv oyunlar oynayırlar. Bu da onlarda erkən davranış pozğunluqlarına gətirib çıxarır. Belə uşaqlar sinifdə davranışları ilə digərlərinə təsir edir və pis örnək olurlar. Uşaqları başa düşmək və anlamaq üçün valideyn və müəllim birgə fəaliyyət göstərməlidir. Mənim fikrimcə, valideynlər öz övladlarının düzgün tərbiyə alması üçün onların asudə vaxtlarını düzgün təşkil etməlidirlər.

Təhsil Nazirliyinin həyata keçirdiyi bu sosial kampaniyanı bir müəllim olaraq müsbət qiymətləndirirəm. Düşünürəm ki, biz müəllimlərin izlədiyi videoçarx bir şagirdin timsalında onu əhatə edən insanların düzgün olmayan rəftarının nəticəsini göstərməklə yanaşı, gələcəkdə bu kimi halların qarşısının alınmasında əhəmiyyətli rol oynayacaq.

### Şagirdlərdə özünəinam hissi yaratmaq əsas şərtdir

*Yeganə Hüseynova 60 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimidir. Əməkdar müəllimdir. Deyir ki, bu gün yeniyetmələrin həyat tərzi və onlara yönələn diqqət ən aktual mövzulardan biridir. Həm ailənin, həm məktəbin üzərinə çox ağır, eyni zamanda məsuliyyətli bir vəzifə düşür.*

- Etiraf etmək lazımdır ki, bugünkü yeniyetmələr çox fərqli şəkildə yetişirlər. Onlar olduqca ağıllı, savadlı, əhatəli informasiyaya malikdirlər. Müsbət cəhət odur ki, intellektual səviyyə baxımından yeniyetmələrimiz çox irəlidədirlər, geniş informasiyaya malikdirlər, yaradıcıdırlar və s.

Hər bir yeniyetmənin həyatda öz yerini tapmasında ailənin müstəsna rolu var. Amma məktəbin də rolu inkaredilməzdir. Məktəb şagirdlərin ikinci evi sayılır. Bu mənada da hər bir şagirdə müəllimləri tərəfindən diqqət göstərilməli, kollektivdə özlərini necə aparmaları, bir-birlərinə olan münasibətləri nəzarətdə saxlanılmalıdır. Məktəb cəmiyyət üçün yararlı vətəndaş yetirməlidir.

Uşağı başa düşmək üçün birinci növbədə onunla dost olmaq lazımdır. Onun hər bir fikrini, arzusunu səbrlə dinləmək əsas şərtdir. Həm valideynlər, həm də müəllimlər onun istək və arzularını, psixoloji durumunu anlamalı və nəzərə almalıdır. Uşaqların hər bir fikrinə ciddi yanaşmalı, onları bir obyekt kimi yox, subyekt kimi qəbul etmək lazımdır. Şagirdlərdə özünə inam hissi yaratmaq əsas şərtdir. Valideynin və ya müəllimin ona dayaq ola biləcək hissini və inamını formalaşdırmaq uşaqda dönüş nöqtəsi ola bilər. Onu anlayan birinin ən çətin vaxtda belə onun yanında olması hissi, inamı uşaqları daha güvənli olmaqla yanaşı, düzgün qərar verməyə sövq edər.

Bu gün uşaqların öz problemini qismən deməsi və ya heç deməməsini cəmiyyətdəki xoşagəlməz proseslərlə əlaqələndirirəm. Çünki bu gün cəmiyyətdə “basqı psixologiyası” daha çox formalaşıb. İşin səbəbini və mahiyyətini bilmədən fikir söyləyənlərin sayı durmadan artır. Buna görə də uşaqlar qınaq obyekti olmaq istəmirlər. İstər valideynlər, istərsə də müəllimlər arasında elələri var ki, onlarda dinləmə, analiz etmə bacarığı tam inkişaf etməyib. Bəzən baş verən hadisələrə, yaranan problemlərə biganəlik də uşaqların daxilindəki narahatçılıqla baş-başa qalmasına şərait yaradır. Bu isə uşaqların özünə qapanmasına səbəb olan faktorlardan biridir. Bəzən isə tam əksinə. Yəni, uşaqların özləri düzgün seçim etmirlər. Qınaq obyekti olmaq hissi onların susmasına səbəb olur. Belə hisslər onları digər uşaqlardan uzaqlaşmağa, özünəqapanmaya və nəticədə onların depressiyaya düşməsinə səbəb olur. Təcrübəmdən deyə bilərəm ki, bu tip uşaqlar kollektiv arasında da sevilmirlər, bəzən yoldaşları onlardan “qisas almaq” haqqında düşünürlər. Çox təəssüf ki, bunun da acı nəticələri olur.

Son vaxtlar sosial şəbəkələrdə tez-tez rastıma çıxan Təhsil Nazirliyinin “Mənimlə danış” kampaniyası çərçivəsində çəkilən sosial yönümlü videoçarx haqqında onu deyə bilərəm ki, bu problemin həllinə doğru atılan düzgün bir addımdır. Erkən yaşlarından aldığı psixoloji travma haradasa bir ömrün yarımçıq qalmasına, parçalanmasına səbəb olur. Uşaqları qorumaq lazımdır, çünki onlar bizim gələcəyimizdir. Onların problemlərini, dərdlərini özümüzünküləşdirməliyik. Müəllimlər öz vəzifəsini təkcə elm öyrətməklə bitmiş hesab etməməlidirlər. Dərs dediyi hər bir uşağın ən kiçik dərdini belə duymalı, onun düşdüyü çətin vəziyyəti anlamalı, bu vəziyyətdən çıxış yolunu göstərməli və problemi necə çözəcəyini bilməlidir.

### Uşağı anlamaq üçün onu tanımaq lazımdır

*7 nömrəli tam orta məktəbin digər müəllimi Kifayət Qurbanova bu gün bullinqin (zorakılığın, şiddətin) qurbanı olan uşaq və yeniyetmələrlə, gənclərlə rastlaşdıqlarını təəssüflə bildirir. Söyləyir ki, bu zorakılıq hallarının başvermə səbəbləri də müxtəlifdir. Biganəlik, laqeydlik, diqqətin, sevginin azlığı və yaxud da heç olmaması, aqressiv münasibət və sonda intihar. Hazırda bütün dünyada belə bir problemin olduğunu deyir.*

- İlk öncə, günahkar ona həyat verib dünyaya gətirən, sonradan isə öz biganəliyi ucbatından övladını uçuruma sürükləyən valideyndir. Bu valideynləri mən 3 qrupa bölərdim: 1-ci qrup valideynlər övladlarında özünəqapanma görəndə çox aydın şəkildə öz mövqeyini büruzə verir: “Psixoloji durumdur, çox fikir etməyə dəyməz, uşaqdır, necə olsa, böyüyəcək. Mən, sən necə böyümüşük?..”. 2-ci qrup valideynlər isə dəridən - qabıqdan çıxıb bütün imkanlarından istifadə edərək, hətta bəzən imkanlarının sərhədlərini aşaraq uşaqlarının arzu və istəklərini nəzərə almadan onları “zamanın tələbinə uyğun” böyüdənlərdir. Arzuolunmayan sonluqla rastlaşdıqda isə “biz əlimizdən gələni etdik” deyərək özlərini sığortalamağa çalışırlar. Amma valideyn bu zaman düşünmür ki, uşağının fikrini sormadan onun yerinə hər şeyi özü planlaşdırdı, həyata olan inamını öldürdü. Bir də 3 -cü qrup valideynlər var, hansı ki, onlar uşağı ilə dostdur, övladı səhv edəndə təhqiri deyil, tənqidi seçir, o valideyn ki, sərbəstliyi anarxiya deyil, demokratiya kimi anlayır və anladır. Bir sözlə, övladına laqeyd deyil. Valideyn övladının tərbiyəsinin təməlini dürüstlük, ləyaqət, nəzakət və bu kimi digər insanlığın təzahürü olan daşlarla hörməlidir.

Məktəbdə müəllimlərin uşaqların psixoloji durumları ilə maraqlanması da birmənalı deyil. Uşağı anlamaq üçün,onu mühakimə etmək əvəzinə, ilk növbədə dinləməyi seçmək, empati qurmaq və ən əsası onu tanımaq lazımdır.

Uşaqların onları narahat edən problemlərlə bağlı danışmaq istəməmələrinə bir neçə səbəb göstərmək olar. Fikrimcə, ən qüvvətlisi qorxu hissidir. Qorxuya təkan verən, onu yaradan isə özgüvənin yoxluğudur. Əgər uşaqda özünəinam olsa, bu qorxuların hamısına özü cavab verə bilər. Özgüvəni ailədə valideyn yaradır. Valideyn övladına inanmalıdır ki, o da özünə inansın. Özünə güvənən uşaq qorxularını yenərək problemlərinin üzərinə gedər, bunun həlli yolunu doğru insanla bölüşməkdən qorxmaz. Uşaqlara qulaq asmaq, dərdini bölüşməyi öyrətmək lazımdır.

Təhsil Nazirliyinin təşəbbüsü ilə belə bir kampaniyanın başlanılması təqdirəlayiqdir. “Mənimlə danış” videoçarxı artıq çoxlarını yerindən “tərpətdi”, bir növ “silkələdi”. Bu yolla bir çox yeniyetməmizi cəsarətli olmağa , hər bir halda kömək istəməyə yönəltmək olar. Zorakılığa məruz qalan yeniyetmə öz hüquqlarını, kimə müraciət edə biləcəyini bilməlidir, dərdini böyüklərlə bölüşməlidir, bundan qorxmamalı, utanmamalıdır. “Mənimlə danış” videoçarxı təkcə yeniyetmələrə deyil, eyni zamanda ailələrə və valideynlərə tək bir cümlə ilə bu mesajı ötürür: “Mənim varlığımın fərqinə var, məni dinlə, mənimlə danış...”.

### Yeni sosial kampaniya təqdirəlayiqdir

*Məsələyə münasibət bildirən Təhsil Şurasının sədri, pedaqogika üzrə elmlər doktoru, professor Hikmət Əlizadə müasir dövrdə ailədə demoqrafik proseslərin təsiri nəticəsində özünəməxsus ailədaxili münasibətlər formalaşdığını qeyd edir.*

- Bu məsələni izah edək: XX əsrin I yarısında ölkəmizdə miqrasiya proseslərinin sürətlə artması nəticəsində əhalinin böyük əksəriyyəti kənd həyat tərzindən şəhər həyat tərzinə keçid etdi. Kənd həyat tərzində mürəkkəb ailə tipi dominant idi, şəhər həyat tərzi üçün nuklear ailələr (ata, ana və uşaqlar) daha xarakterik oldu. Mürəkkəb ailə tipində çoxuşaqlılıq birmənalı şəkildə üstünlük kəsb edirdisə, nuklear ailədə uşaqların sayı sürətlə azaldı. Çoxuşaqlı mürəkkəb ailə tipində ailədaxili münasibətlər, obrazlı desək, çiçəkləndiyi halda, əksər 1-2 uşaqlı nuklear ailə tipində yox olmağa başladı. Ailədə valideynlərin hər ikisinin istehsalatda işlədiyini, telefonların çoxalmasını, insanların internetdən (votsap, feysbuk, instaqram və s.) istifadə etməsini nəzərə alsaq, ailədə ünsiyyətin nə qədər azaldığını müşahidə edə bilərik. Ünsiyyətin uşağın inkişafı baxımından son dərəcə önəmli olduğunu düşünsək, bu meylin təhlükəsini təsəvvür etmək çətin deyil. Valideynlərin böyük əksəriyyəti bunu görmür, gördükdə isə ailədaxili ünsiyyətin formalaşması üçün zəruri tədbirləri həyata keçirməkdə aciz qalırlar. Belə olan halda məktəbdə müəllimlər uşaqların ünsiyyət tələbatının təmin olunması üçün zəruri pedaqoji işlər görməlidirlər. Uşaq psixologiyasına yaxşı bələd olan müəllimlər məhz belə də edirlər. Lakin təəssüf hissilə qeyd edək ki, hələ də bəzi müəllimlər öz vəzifəsini yalnız fənni tədris etməklə bitdiyini düşünürlər. Nəticədə həm evdə, həm də məktəbdə uşaq və yeniyetmələrin ünsiyyət tələbatının ödənməsi xaotik xarakter daşıyır.

Şagirdlərini yaxından tanımaq müəllim və sinif rəhbərlərinin birinci dərəcəli vəzifəsidir. Uşaq və yeniyetməyə qayğı ilə yanaşılmalıdır. Müasir dövrdə onların qayğıya xüsusi ehtiyacı var. İstər valideynlər, istərsə də müəllimlər uşaqların hiss və həyəcanları ilə tanış olmalı, onlara qarşılarına çıxan problemləri həll etməyin yolunu göstərməlidirlər. Lakin bunu uşaqla əməkdaşlıq müstəvisində həyata keçirməlidirlər.

Psixoloqlar qeyd edirlər ki, yeni dövrün mədəniyyəti monoloji mədəniyyət idi, bir səsin-ağlın mədəniyyəti idi. Ağlı isə evdə valideyn, sinifdə müəllim təmsil edirdi. Valideyn və müəllimin dominantlığı onların hər şeyi bilməsi ilə xarakterizə olunurdu. Müasir dövrün mədəniyyəti isə dialoji mədəniyyətdir. Dialoq subyektlərin dialektik rabitəsidir. Əgər tarixə nəzər salsaq, görərik ki, 80-ci illərə qədər həm valideynlər, həm də müəllimlər uşaqlarla asanlıqla “dil” tapa bilirdilər. Həmin dövrdə insan münasibətlərində avtoritar metodlar (monoloji mədəniyyətin metodları) dominant idi. Valideynlər və müəllimlər bu metodları yaxşı əxz etmişdilər. Müasir dövr üçün isə əməkdaşlıq metodları (dialoji mədəniyyətin metodları) daha effektivdir. Təbii ki, valideyn və müəllimlər bu metodları əxz etməyibsə, onların uşaqlarla ünsiyyətində problemləri hər gün artır və artmaqda davam edəcəkdir.

Dünya sürətlə dəyişir. Biz də dəyişməliyik. Əslində dəyişirik də... Geyimimiz dəyişir, həyat tərzimiz dəyişir, evimizin təmiri dəyişir... Dəyişməyən bir şeydir: İnsan münasibətlərinə yanaşma tərzimiz. Bizim hər birimiz elə düşünürük ki, hamıdan ağıllıyıq. Atalar nə vaxtsa bizə deyib: “Bir baş ağıllıdır, iki baş ondan da ağıllıdır”. Uzun illər ola bilər ki, bu atalar sözünün mahiyyətinə varmamışıq. Bəlkə zaman da bunu bizdən tələb etməyib. Amma indi zaman dəyişib. İstəsək də, istəməsək də dialoji mədəniyyətin tələblərinə uyğunlaşmalıyıq, bu tələblərə müvafiq metodları nəinki əxz etməliyik, hər bir addımımızda onlardan istifadə etməliyik, xüsusilə uşaq və yeniyetmə ilə münasibətimizdə də. Biz qarşımızdakı şagirdi şəxsiyyət kimi qiymətləndirib, onun hiss və həyəcanlarına diqqət və qayğı ilə yanaşmalıyıq, onun səhv düşüncələrini isə yalnız dialoq və diskussiya vasitəsi ilə dəyişə bilərik. Hazırda yaşadığımız dövr bunu bizdən tələb edir.

Düşünürəm ki, Təhsil Nazirliyinin başladığı bu yeni sosial kampaniya olduqca təqdirəlayiqdir. Hazırlanmış videoçarx bir məktəblinin harayını və günümüzün reallığını özündə əks etdirir. Videoçarx bu reallığı çılpaqlığı ilə əks etdirir və insanlara hayqırır: “Gəlin uşaqlarımıza qarşı diqqətli olaq”. Bu gün bu çağırış öz bəhrəsini verə bilər, sabahsa... gec ola bilər. Gəlin sabahı gözləməyək, qayğı və diqqətimizi bu gündən başlayaraq çoxaldaq. Bütövlükdə, yaşımızdan asılı olmayaraq, bir-birimizə də diqqət və qayğını artıraq.

Lap əvvəllər olduğu kimi...